# Deportasiya olunmuş Qərbi azərbaycanlıların hüquqları bərpa edilməlidir



**Bərdədə "Qərbi Azərbaycan İrsi" kitabının I cildinin təqdimatı**

**Bərdə rayon Mədəniyyət Mərkəzində "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildinin təqdimatı keçirilib.**

Təqdimat mərasimində rayonun idarə, müəssisə, təşkilat rəhbərləri, inzibati ərazi dairələri üzrə nümayəndəlik əməkdaşları, fəal gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib dərin ehtiramla önünə gül düzüblər. Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Vətən uğrunda həlak olan şəhidlərimizin, o cümlədən Qərbi Azərbaycanda milli ayrı-seçkiliyə məruz qalmış soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra "Qərbi Azərbaycan İrsi" tədqiqatlar seriyasından sənədli videoçarx nümayiş edilib.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Vidadi İsayev bildirib ki, XX əsrin müxtəlif mərhələlərində Qərbi Azərbaycandan yüz minlərlə azərbaycanlı soydaşımızın öz doğma yurd-yuvasından zorla çıxarılması təkcə deportasiya deyil, həm də xalqımızın mədəni, tarixi və mənəvi izlərinin silinməsinə yönəlmiş sistemli siyasət idi. Bu ağır dövrdə azərbaycanlıların hüquqlarının müdafiəsi məsələsində Ulu Öndər Heydər Əliyevin siyasi qətiyyəti və uzaqgörənliyini diqqətə çatdırıb. Hələ sovet hakimiyyəti dövründə belə, Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın hüquqlarının pozulmasına qarşı cəsarətlə çıxış etdiyini, onların hüquqi müdafiəsini vacib saydığı bildirilib.

Xüsusilə qeyd olunub ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq müstəvidə tanıdılması, deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpası və onların ləyaqətli şəkildə öz yurdlarına qayıdışı məsələsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Prezident İlham Əliyev bu məsələni beynəlxalq platformalarda, xarici ölkə liderləri ilə görüşlərində və çıxışlarında daim gündəmdə saxlayır. Nəşrin həm tarixi faktların qorunması, həm də beynəlxalq ictimaiyyətə çağırış xarakteri daşıdığı bildirilib və bu istiqamətdə göstərilən diqqət və dəstəyə görə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ifadə edilib.

Sonra YAP rayon təşkilatının sədri Fəqət Şadlinskaya çıxış edərək bildirib ki, Qərbi Azərbaycandakı soydaşlarımıza qarşı beynəlxalq hüquqa zidd əməllərin cəzasız qalmasından istifadə edən Ermənistan 30 ildən çox müddətə Azərbaycan torpaqlarını işğal altında saxlayıb. Ermənilər tərəfindən azərbaycanlılara qarşı yalnız etnik təmizləmə siyasəti həyata keçirilməyib, eyni zamanda, soydaşlarımıza məxsus maddi-mədəni irsin yer üzündən tamamilə silinməsinə yönəlik vandalizm aktları törədilib.

Bildirilib ki, qəbiristanlıqlar bir xalqın keçmişi, inancı və kollektiv yaddaşıdır. Ona görə də qəbiristanlıqları dağıtmaq həmin xalqın izlərini silmək cəhdidir. Bu, həm də hər kəsin bildiyi kimi beynəlxalq humanitar hüququn və insan hüquqlarının ciddi şəkildə pozulmasıdır.

Tədbirdə çıxış edən Qərbi Azərbaycan İcmasının idarə heyətinin üzvü, Milli Məclisin deputatı İlham Məmmədov "Qərbi Azərbaycan İrsi" kitabının əhəmiyyətinə toxunaraq vurğulayıb ki, bu nəşr Qərbi Azərbaycanda xalqımıza qarşı həyata keçirilən sistemli vandalizmin sənədlərlə təsbit olunmuş sübutudur. Bu kimi əsərlər həm beynəlxalq ictimaiyyətin məlumatlandırılması, həm də gələ-



cək nəsillərin maarifləndirilməsi baxımından əvəzsiz mənbədir. Bildirib ki, kitab, eyni zamanda, xalqımızın bu əzəli torpaqlarla bağlı hüquqi mövqeyinin əsaslandırılmasında mühüm rol oynayır.

Tədbirdə Qərbi Azərbaycan İcmasının Bərdə rayon üzrə nümayəndəsi Fəzair Piriyev, Qərbi azərbaycanlı gənc Səbuhi Qasımov çıxış edərək xalqımızın başına gətirilmiş deportasiya faciələrindən, bu proseslərin tarixi mərhələlərindən danışıblar, eləcə də Qərbi Azərbaycan probleminə göstərilən yüksək diqqət və həssas münasibətə görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

**Vəli VƏLİYEV,**
**"Respublika".**